№57-58 (2123)
2 avqust 2024
www.medeniyyet.az

# Gədəbəy rayonunda vətəndaşların qəbulu və müəssisələrə baxış keçirilib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, hər ay mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda qəbullar keçirilir, vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilir.

Mədəniyyət naziri Adil Kərimli iyulun 29-da Gədəbəy rayon Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.

Qəbuldan öncə nazir Adil Kərimli və rayonun icra başçısı Orxan Mürsəlov Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Qəbul zamanı Gədəbəy, Şəmkir, Tovuz, Ağstafa və Qazax rayonlarından olan vətəndaşlar işlə təmin olunma, əməyin qiymətləndirilməsi, mədəniyyət sahəsi ilə bağlı təkliflər, təşəbbüslər və digər məsələlərlə bağlı müraciətlərini diqqətə çatdırıblar.



Mədəniyyət naziri vətəndaşları dinləyərək hər bir müraciət üzrə məsələlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli ilə bağlı nazirliyin məsul nümayəndələrinə tapşırıqlar verib.

Qəbulda iştirak edən şəhid ailələrinin üzvləri və qazilərin qaldırdıqları məsələlərə xüsusi diqqət göstərilib, onların müraciətlərinə vaxtında baxılması məqsədilə qeydiyyat aparılaraq nəzarətə götürülüb.

***

Qəbuldan sonra nazir Adil Kərimli Gədəbəy şəhərində bir sıra mədəniyyət müəssisələrinin – Gədəbəy Aşıq Məktəbi, Uşaq incəsənət məktəbi, Mərkəzi Kitabxana Sisteminin (MKS) binası, bir binada yerləşən Gədəbəy rayon Mədəniyyət Mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi və MKS-nin Uşaq şöbəsinin fəaliyyəti ilə tanış olub.

Həmçinin Gədəbəy rayonunun Slavyanka kəndində Folklor klubuna, Musiqi məktəbinə və kənd kitabxanasına baxış keçirilib.

Müəssisələrdə mövcud olan problemlərin aradan qaldırılması, fəaliyyətin səmərəli təşkili ilə bağlı müvafiq tapşırıq və tövsiyələr verilib.